

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 4 noyabr 2023-cü il №84 (2796) https://mod.gov.az Qiymәti 30 qәpik


## Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Zati-aliləri cənab Abdelmacid Tebbuna

Hörmətli cənab Prezident,
Əziz Qardaşım.

1 Noyabr - İnqilab Günü münasibətilə Sizə və Sizin simanızda qardaş Əlcəzair xalqına öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Amansız müstəmləkəçilik siyasətinə qarşı xalqınızın azadlıq mübarizəsinə başladığı bu əlamətdar gün Əlcəzairin qəhrəmanlıqlarla zəngin olan tarixinin ən şərəfli səhifələrindən biridir. Yüz ildən artıq dövr ərzində əsarətə və kütləvi zorakılığa məruz qalan, misli görünməmiş qəddarlıq, insanlıq əleyhinə cinayətlərlə üzləşən Əlcəzair xalqı müstəqilliyini bir milyon yarım şəhidin canı bahasına əldə etmiş və bununla da iradəsinin sarsılmazlığını, yenilməzliyini, mətinliyini və azadlıq əzmini bütün dünyaya nümayiş etdirmişdir.

Otuzillik işğaldan əziyyət çəkmiş Azərbaycan xalqı Əlcəzair xalqının hisslərini yaxşı başa düşür. Şadam ki, bu gün ənənəvi dostluq və qardaşlıq telləri ilə bir-birinə bağlı olan ölkələrimiz arasında əlaqələr dinamik inkişaf edir. Eyni zamanda, çoxtərəfli müstəvidə qarşılıqlı faydalı birgə fəaliyyətimiz məmnunluq doğurur.

Əminəm ki, qarşılıqlı etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimiz, səmərəli əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da birgə səylərimizlə uğurla inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş Əlcəzair xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

Hörmətlə,

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 oktyabr 2023-cü il

## Prezident İlham Əliyev Pakistan Silahlı Qüvvələrinin Quru Qoşunları komandanını qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Pakistan Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı Asim Muniri qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini bildirdi.

Prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzü dövründə Pakistan hökumətinin və xalqının ölkəmizə göstərdiyi davamlı dəstəyi yüksək qiymətləndirdi. Dövlətimizin başçısı Pakistanın Ermənistanın təcavüzünə görə bu ölkə ilə diplomatik əlaqələr qurmamasını Azərbaycana göstərilən qardaşlıq münasibətinin nümayişi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsi dövründə də Pakistanın Azərbaycana göstərdiyi siyasi dəstəyə görə minnətdarlığını ifadə etdi.

Dövlətimizin başçısı torpaqlarımızın işğaldan azad olunması kimi tarixi missiyanı başa çatdırdığımızı, suverenliyimizin tam bərpa olunduğunu, işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı yenidənqurma işlərinə başlanıldığını məmnunluqla bildirdi.

Prezident İlham Əliyev Azərbaycan ilə Pakistan arasında hərbi sənaye sahəsində uğurlu əməkdaşlığın olduğunu deyərək, ölkələrimizin birgə hərbi təlim keçirməsinin önəminə toxundu.

Dövlətimizin başçısı beynəlxalq səviyyədə ölkələrimizin suverenliyi və ərazi bütövlüyü məsələsinə toxunaraq, Azərbaycanın qardaş Pakistanı Cəmmu və Kəşmir məsələsində hər zaman dəstəklədiyini bir daha qeyd etdi.

Prezident İlham Əliyev Asim Munirin səfərinin əməkdaşlığımızın möhkəmlənməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.

Asim Munir İkinci Qarabağ müharibəsində əldə olunan Qələbə və bu ilin sentyabrında həyata keçirilən antiterror tədbirlərində Azərbaycanın qazandığı uğurlar münasibətilə təbriklərini çatdırdı, bunun Pakistanda böyük sevinclə qarşılandığını qeyd etdi. Qonaq Pakistanın Azərbaycan xalqı ilə qardaşlıq əlaqələri nümayiş etdirərək, Ermənistanı bu günə kimi tanımadığını bir daha vurğuladı.

Asim Munir Cəmmu və Kəşmir məsələsində ölkəmizin dəstəyinə görə minnətdarlığını bildirdi.

## Əlahiddə Ümumqoşun Orduda istismarda olan avtomobil texnikalarına baxış-müsabiqəsi keçirilib

*Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələri arasında təşkil olunan baxış-müsabiqəsində hər bir sürücünün idarə etdiyi avtomobilin quruluşu, işləmə prinsipi və texniki istismarı qaydaları barədə bilik və bacarıqları yoxlanılıb, avtomobil texnikalarının saz vəziyyətdə saxlanmasına xüsusi diqqət yetirilib.*







Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, müsabiqədə müxtəlif markalı minik avtomobillərə, mikroavtobus və avtobuslara gündəlik texniki xidmətin göstərilməsi ardıcıllığı yoxlanılıb.

Ən yaxşı nəticəni göstərən hərbi hissələr baxış-müsabiqəsinin sonunda mükafatlandırılıb.

Qeyd edək ki, texnikada yaranan nasazlığın aradan qaldırılması, ona texniki qulluğun lazımi qaydada göstərilməsi yüksək təcrübə və praktiki bilik tələb edir. Ordumuzun birləşmə və hissələri arasında keçirilən baxış-müsabiqələri şəxsi heyətin bu sahədə bilik və bacarıqlarının təkmilləşdirilməsinə şərait yaradır.

# Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri






*Noyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında keçiriləcək 10-cu yubiley Zirvə görüşündə iştirak etmək üçün Qazaxıstan Respublikasına səfər edib.*

Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi Qazaxıstanın Baş naziri Alixan Smailov və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Noyabrın 3-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilib. Bu ilin sentyabrında həyata keçirilən antiterror tədbirlərinin uğurla başa çatması məmnunluqla vurğulanıb.

Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısını Xankəndi və Xocalı şəhərlərində Azərbaycan Bayrağını ucalt-



ması münasibətilə təbrik edib.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşünün ölkələrimiz və xalqlarımız arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi işinə xidmət etdiyi qeyd olunub.

Görüşdə ikitərəfli münasibətlərimizin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik bildirilib, əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.




* * *

Noyabrın 3-də Astanada Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Prezident İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşılayıb.

Sonra birgə foto çəkdirilib.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Zirvə görüşünü açaraq qonaqları salamlayıb.

Dövlətimizin başçısı Zirvə görüşündə çıxış edib.

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

- Hörmətli Kasım-Jomart Kemeleviç,

Hörmətli dövlət və hökumət başçıları,

Əziz dostlar,

İlk növbədə, qonaqpərvərliyə görə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə təşəkkür edir və qardaş Qazaxıstana Türk Dövlətləri Təşkilatına qarşıdan gələn sədrliyi dövründə müvəffəqiyyətlər arzulayıram. Türk Dövlətləri Təşkilatına bir il ərzində uğurlu sədrlik münasibətilə qardaş Özbəkistanı təbrik edirəm.

Yenidən Astana şəhərində olmağıma şadam. Bu, son 2 ildə Qazaxıstana üçüncü səfərimdir. Hər səfərimdə Qazaxıstanda uğurlu islahatların və genişmiqyaslı quruculuq işlərinin həyata keçirilməsinin şahidi oluram. Bütün əldə edilmiş uğurlar münasibətilə Qazaxıstan rəhbərliyini təbrik edirəm.

Türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Etnik və mədəni köklərimiz, dilimiz, ortaq keçmişimiz münasibətlərimizin təməlini təşkil edir. 2009-cu ildə Naxçıvan Zirvə görüşündən ötən müddət ərzində müxtəlif sahələrdə əməkdaşlığımız təsisatlanıb, Türk Dövlətləri Təşkilatı uğurlu inkişaf yolu keçib. Bu gün təşkilatımız beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malikdir.

Son iki il ərzində mən Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi dövlətlərə 20 sə-



fər etmişəm. Qardaş dövlətlərin rəhbərləri də həmin dövr ərzində Azərbaycana çoxsaylı səfərlər ediblər.

Oktyabr ayında Şuşa şəhərində Birinci Türk Dünyası Mədəniyyət Forumu təşkil edilmişdir. Fürsətdən istifadə edərək, Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsinə verdiyiniz dəstəyə görə minnətdarlığımı bildirirəm.

Azərbaycan Türk dövlətlərinin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox sərmayə qoymuşdur. Bunun əsas hissəsi Türkiyəyə qoyulan sərmayədir.

Birgə sərmayə fondlarının yaradılması prosesi başlamışdır. Azərbaycan-Özbəkistan İnvestisiya Fondu və Azərbaycan-Qırğızıstan İnkişaf Fondu yaradıldı.

2022-ci ilin müvafiq dövrü ilə müqayisədə, 2023-cü ilin yanvar-sentyabr aylarında Azərbaycanın Türk dövlətləri ilə ticarət dövriyyəsi 40 faiz artmışdır.

Münasibətlərimizin inkişafı kontekstində nəqliyyat və logistika sahələri mühüm yer tutur. Azərbaycan Mərkəzi Asiya ölkələri ilə Türkiyə və Avropa bazarları arasında etibarlı tranzit ölkə kimi özünü təsdiqləyib.

Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizinin dayanıqlı fəaliyyətinə öz dəyərli töhfəsini verir.

Hörmətli həmkarlar,

Əfsuslar olsun ki, bu gün dünyanın müxtəlif bölgələrində beynəlxalq hüquq normaları kobudcasına pozulur. Müharibələr, qanlı münaqişələr alovlanır. Belə olan halda, ilk növbədə, ölkələrin müdafiə potensialı təhlükəsizliyin əsas zəmanətinə çevrilir. Hesab edirəm ki, üzv ölkələr arasında təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə əməkdaşlıq daha da artmalıdır.

**(Ardı 3-cü səhifədə)**

# Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri



(Əvvəli 2-ci səhifədə)

Bildiyiniz kimi, 30 ilə yaxın müddət ərzində Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlamış və burada qeyri-qanuni qondarma rejim yaratmışdı. Ermənistan tərəfindən həyata keçirilmiş etnik təmizləmə nəticəsində bir milyondan artıq azərbaycanlı öz dədə-baba yurdlarından qovulmuşdur. Ermənistan şəhər və kəndlərimizi yerlə-yeksan etmiş, tarixi və dini abidələrimizi dağıtmış və təhqir etmişdir.

Bütün bu illər ərzində Azərbaycan münaqişəni sülh yolu ilə həll etməyə çalışırdı. Lakin Ermənistanın məqsədi işğala əsaslanan status-kvonu möhkəmləndirmək idi.

Ermənistanın baş nazirinin 2019-cu ildə o vaxt işğal altındakı Xankəndi şəhərində "Qarabağ Ermənistandır və nöqtə" açıqlaması danışıqlara son qoydu. Ermənistan rəhbərliyi o vaxt Azərbaycanı "yeni torpaqlar uğrunda yeni müharibə" ilə hədələyirdi.

2020-ci ildə Ermənistan rəhbərliyinin təxribat xarakterli hərəkətləri və bəyanatları, o cümlədən hərbi təxribatları İkinci Qarabağ müharibəsini qaçılmaz etdi.

2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, özünümüdafiə hüququndan istifadə edərək Ermənistanı döyüş meydanında məğlubiyyətə uğratdı və ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb edən və 27 il kağız üzərində qalmış 4 qətnaməsinin icrasını özümüz təmin etdik. Cəmi 44 gün ərzində davam edən İkinci Qarabağ müharibəsi 10 noyabr 2020-ci il tarixində Ermənistanın kapitulyasiya aktını imzalaması ilə nəticələnmişdir.

Ermənistanın ölkəmizə qarşı işğalçılıq və etnik təmizləmə siyasətinə baxmayaraq, məhz Azərbaycan Ermənistanla sülh sazişi imzalamağa hazır olduğunu bəyan etdi və beş baza prinsipini təqdim etdi.

2022-ci ildə Ermənistan Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanıdığını bəyan etsə də, onun real əməlləri tamamilə məntiqsiz və təzadlı idi. Ermənistan ordusunun qalıqları Azərbaycanın suveren ərazilərində qalmaqda davam edirdi. Ermənistanın baş nazirinin bu il sentyabrın 2-də qondarma qurumun dırnaqarası "müstəqilliyi"ni təbrik etməsi və Qarabağda keçirilmiş 9 sentyabr dırnaqarası "prezident seçkiləri" ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə hörmətsizlik və birbaşa təhdid idi.

2023-cü il sentyabrın 19-da işğaldan azad edilmiş torpaqlarımızda qanunsuz erməni silahlı birləşmələri tərəfindən qəsdən yerləşdirilmiş minaların partlaması 6 mülki şəxsin və polis əməkdaşının həyatına son qoydu. Bundan sonra Azərbaycan konstitusiya quruluşunun bərpası və qanunsuz hərbi birləşmələrin zərərsizləşdirilməsi məqsədilə lokal xarakterli antiterror tədbirləri həyata keçirdi. 23 saat ərzində bitən əməliyyat nəticəsində Azərbaycan özünün suverenliyini və konstitusiya quruluşunu tam bərpa etdi. Antiterror tədbirləri nəticəsində mülki insanlara və mülki infrastruktura heç bir ziyan dəymədi. Azərbaycan beynəlxalq humanitar hüquqa tam riayət etdi. Bölgəyə iki dəfə səfər edən BMT missiyası bu faktları təsdiq etmişdir.

Üç il əvvəl Vətən müharibəsi başa çatdıqdan dərhal sonra Azərbaycan işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı bərpa-quruculuq işlərinə başladı. Bu məqsədlə artıq Azərbaycan büdcəsindən 7 milyard ABŞ dolları həcmində vəsait sərf edilib. Növbəti il ən azı 2,4 milyard ABŞ dollarının ayrılacağı nəzərdə tutulur.

Biz Böyük Qayıdış Proqramını icra edirik. Artıq keçmiş məcburi köçkünlər - bu torpaqların əsl sahibləri Laçın və Füzuli şəhərlərinə və üç kəndə qayıdıb. 2026-cı ilin sonunadək Qarabağa və Şərqi Zəngəzura 140 mindən artıq insanın geri dönməsi nəzərdə tutulur.

Füzuli şəhərində inşası başa çatmış məktəbə görə Özbəkistanın Prezidenti Şavkat Mirziyoyevə bir daha minnətdarlığımı bildirirəm. Avqust ayında birgə iştirakımızla məktəbin açılış mərasimini məmnuniyyətlə xatırlayıram. Qazaxıstanın Azərbaycana hədiyyəsi olan Füzuli şəhərində inşa edilən yaradıcılıq mərkəzinə görə Prezident Kasım-Jomart Tokayevə təşəkkürümü bildirirəm. Bunlar Azərbaycan və Özbəkistan, Azərbaycan və Qazaxıstan xalqları arasında olan dostluğun və qardaşlığın təzahürüdür.

Əziz dostlar,

Biz böyük Türk dünyasının bir hissəsiyik. Əminəm ki, dostluğumuz, qardaşlığımız əbədi olacaq. Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzu daha da artacaq.

Təşəkkür edirəm.

* * *



Tədbirdə digər dövlət və hökumət başçıları da çıxış ediblər.

Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev görülən işlər haqqında ətraflı məlumat verərək qeyd edib ki, ötən dövr ərzində müxtəlif sahələrdə bir sıra mühüm qərarlar qəbul olunub.

Sonra Astana aktı və Astana Zirvə görüşünün Bəyannaməsi imzalanıb.

Daha sonra mükafatlandırma mərasimi olub.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə türk xalqlarının inkişafında böyük xidmətlərinə görə Türk Dünyasının Ali Ordenini təqdim edib.

* * *

Noyabrın 3-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin adından Astanada Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında keçirilən 10-cu yubiley Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına səfəri noyabrın 3-də başa çatıb.

Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Qazaxıstanın Baş naziri Alixan Smailov və digər rəsmi şəxslər yola saldılar.

**AZƏRTAC-ın materialları əsasında**

# Vətən muradına çatdı!

*2012-ci ildə oxuduğum qəzetlərdən birində belə bir başlığa rast gəlmişdim: "Biz Qarabağa qayıdacağıq". 2020-ci ilin payızından isə Azərbaycan xalqı şərəflə "Qarabağ, biz qayıtdıq!", "Qarabağ, sən artıq azadsan!" deyə bilir.*

Ataların yaxşı bir sözü var: "Özgə atına minən tez düşər". İşğalçı siyasətlə başqalarının torpağını zəbt edənlərin, başqalarının Vətənini özünə yurd etmək istəyənlərin aqibəti hər zaman bəlli olub. Bələlərini hər zaman tarix özü ifşa edib.

Məhz 27 setyabr 2020-ci il bu niyyətdə olan ermənilərin ifşasının başlanğıc günü oldu. Mənfur qonşularımız işğal etdikləri torpaqlarla kifayətlənməyib, təxribata əl ataraq hücuma keçdilər və şanlı ordumuz tərəfindən layiqli cavabını aldılar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hələ 44 günlük Vətən müharibəsi başlamazdan öncə çıxışlarının birində deyirdi: "Azərbaycan güclü ölkədir. Azərbaycanın güclü ordusu var. Bütün silahlı qüvvələrimiz istənilən halda və zamanda işğal edilmiş ərazilərimizi düşməndən azad edə bilər. Məsələni sülh yolu ilə həll etməkdə məqsədimiz qan tökülməsinin qarşısını almaqdır. Lakin onu da unutmamalıyıq ki, Dağlıq Qarabağ məsələsi bizim milli məsələmizdir. Dağlıq Qarabağ məsələsinin həlli bizim tarixi vəzifəmizdir. Biz bu məsələni həll etməliyik ki, tarixi ədalət bərpa edilsin. Biz bu məsələni həll etməliyik ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun". Prezidentin bu humanist fikirləri Azərbaycan xalqının da sülhün tərəfdarı olduğunu göstərirdi. Lakin erməni qəsbkarlarının 27 sentyabr 2020-ci ildə təxribat xarakterli hücumu xalqımızın səbir kasasını daşıran son damla oldu.

Ali Baş Komandanın əmri ilə başlayan əks-hücum əməliyyatı zamanı "Dəmir yumruq" mənfur düşmənin başına endirildi. 30 ilə yaxın müddətdə işğala məruz qalan torpaqlar azadlığa qovuşdu. Azad edilmiş ərazilərimizin hər bir kiçik kənd, qəsəbə və şəhərində üçrəngli bayrağımız dalğalandı.

Vurğulamaq yerinə düşər ki, Birinci Qarabağ müharibəsində Azərbaycan torpaqlarının 20 faizinin işğalı xalqımızın yaddaşında ağır izlər qoymuşdu. Lakin Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə ikinci dəfə gəlişi xalqımızın bu durumdan qurtulmasının, həmçinin işıqlı günlərə çıxmasının başlanğıcı oldu. Dahi rəhbər ilk öncə siyasi, iqtisadi və ən əsası da hərbi sahədə islahatların aparılmasına dair siyasi fəaliyyət həyata keçirdi. Məhz düzgün aparılan siyasi fəaliyyətin nəticəsində Azərbaycan dirçəliş yoluna qədəm qoydu. Hərbi sahədə həyata keçirilən islahatların nəticəsi isə göz qabağındadır. Artıq Azərbaycan torpaqları işğal edilmiş bir ölkə yox, qalib ordunun, qalib xalqın ölkəsidir.

İndi isə Azərbaycan üçün quruculuq mərhələsi - postmünaqişə dövrü başlayıb. Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişə birtərəfli qaydada öz həllini tapıb. Azərbaycan Respublikası Prezidentinin bildirdiyi kimi, bunu həll edən tərəf bizik, Azərbaycan dövlətidir: "Biz ərazi bütövlüyümüzü bərpa etmişik. Biz qələbə qazanmışıq. Bizim bu gün gündəlikdə duran hər hansı başqa məsələmiz yoxdur. Biz öz sərhədlərimizə çıxmışıq, Ermənistan-Azərbaycan sərhədini nəzarətə almışıq. Biz artıq quruculuq işlərinə başlamışıq".

Bəli, bu gün Qarabağda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır. Böyük Qayıdış proqramı çərçivəsində müasir texnologiyalara əsaslanan "ağıllı şəhər", "ağıllı kənd" layihələrinin icrası sürətlə davam edir. Həm Qarabağda, həm də Zəngəzurda insanların firavan yaşaması üçün hər cür şərait yaradılır. Yol infrastrukturunun bərpasına xüsusi önəm verilir.

Bundan başqa torpaqlarımızın işğaldan azad edilməsində öz qanından, canından keçən şəhidlərimizin də xatirəsi daima diqqətdə saxlanılır. Müharibə iştirakçılarının sosial şəraitinin yaxşılaşdırılması üçün xüsusi layihələr hazırlanıb, həmçinin müharibədə qəhrəmanlıq və şücaət göstərənlər orden və medallarla təltif ediliblər.

Unutmamalıyıq ki, Azərbaycan xalqının bu şanlı qələbəyə gedən yolunu bizə Ulu Öndər Heydər Əliyev açdısa, bu yolda inamla irəliləməyə, zəfərə çatmağa, "Dəmir yumruq" kimi birləşməyə Azərbaycan xalqının Ümummilli Liderinin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev imza atdı.

**Nuray NƏZƏROVA**
**Bakı şəhəri**

# Azərbaycan ilə Pakistan arasında hərbi əməkdaşlıq məsələləri müzakirə edilib

*Noyabrın 1-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı general Asim Munirin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşdən əvvəl Pakistan nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edib, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirələrini ehtiramla anıblar.

Sonra Müdafiə Nazirliyində təntənəli qarşılama mərasimi keçirilib. Qonaq fəxri qarovul dəstəsinin önündən keçib, hər iki ölkənin Dövlət himnləri səsləndirilib və protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.

General-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq onları Azərbaycanda görməkdən məmnun olduğunu bildirib. Nazir Azərbaycan-Pakistan-Türkiyə arasında həyata keçirilən ikitərəfli və üçtərəfli hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu vurğulayıb. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunda aparılan islahatlardan danışıb.





Göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən general A.Munir Azərbaycanın suverenliyi uğrunda canını fəda edən şəhidlərimizlə bağlı başsağlığı verib. Azərbaycan ilə Pakistan arasında hərbi əməkdaşlığın inkişaf etdirilməsində bu cür görüşlərin əhəmiyyətini xüsusi vurğulayıb. İki ölkə ordularının qoşun növləri qərargahları arasında danışıqların aparılması və əlaqələrin genişləndirilməsinin zəruriliyini qeyd edib.

Görüşdə, həmçinin ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilib.

Sonra müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Pakistan nümayəndə heyəti ilə görüşüb.





Baş Qərargahda keçirilən görüşdə ölkələrimiz arasında hərbi əlaqələrin və strateji tərəfdaşlığın yüksələn xətlə inkişaf etdiyi vurğulanıb. İkitərəfli və üçtərəfli birgə təlimlərin intensivliyinin artırılmasının vacibliyi bildirilib.

Daha sonra Hərbi Hava Qüvvələrinin qərargahında müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirovla görüş keçirilib. Qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Keçirilən görüşlərin sonunda qarşılıqlı hədiyyələr təqdim edilib.

## Milli Müdafiə Universitetində NATO ekspertlərinin iştirakı ilə treninq keçirilir

NATO-nun "Müdafiə təhsilinin genişlənməsi proqramı" (DEEP) çərçivəsində Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunda Beynəlxalq Dil Koordinasiya Bürosunun mütəxəssislərinin iştirakı ilə "STANAG - 6001 oxu və dinləmə test tapşırıqlarının tərtibatı" üzrə treninq keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, treninqdən əvvəl Hərbi İdarəetmə İnstitutunun rektoru, milli təhlükəsizlik və hərbi-nəzəri elmlər doktoru, professor, polkovnik Bəbir Quliyev qonaqlarla görüşüb.

Keçirilən görüşlərin, təşkil olunan kursların Azərbaycan Ordusunun hərbi təhsil sahəsinin təkmilləşdirilməsində mühüm rola malik olduğu qeyd edilib.



Nümayəndə heyəti treninq müddətində müasir hərbi təhsil metodikası, üsul və vasitələrinin öyrədilməsi üzrə yerinə yetiriləcək fəaliyyətlər barədə məlumat verib.

Qeyd edək ki, Xarici dil mərkəzinin müəllim heyətinin, yerli və xarici təhsil üzrə ekspertlərin iştirakı ilə keçirilən treninqdə "dinləmə" (listening), "oxu" (reading) bacarığı testləri, eləcə də "yazı" (writing) bacarığı nümunələri standartlaşdırılır, test komissiyaları tərəfindən tərtib olunan test nümunələri təhlil edilir, Xarici dil mərkəzində təhsil alan hərbi qulluqçularla "dinləmə" (listening) bacarığı üzrə hazırlanan testlər sınaqdan keçirilir.

Treninqin əsas məqsədi Xarici dil mərkəzinin "STANAG - 6001 test suallarının tərtibatı və qiymətləndirilməsi" üzrə fəaliyyətlərə cəlb olunan müəllim və pedaqoq təlimatçılarının bilik və bacarıqlarının təkmilləşdirilməsidir.

## Azad edilmiş ərazilərdə ötən ay aşkarlanmış mina və partlamamış hərbi sursatların sayı açıqlanıb

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən minatəmizləmə əməliyyatları barədə aylıq məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, oktyabrın 1-dən 31-dək Kəlbəcər, Tərtər, Ağdam, Xocalı, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 767 mina, tank əleyhinə 928 mina və 8537 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ay ərzində 6687,4 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# Ulu Öndərin 100 illiyinə həsr olunmuş respublika elmi-praktik konfransı keçirilib



Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi və İkinci Qarabağ müharibəsində qazanılan qələbənin üçüncü ildönümünə həsr olunmuş respublika elmi-praktik konfransı keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, "Milli təhlükəsizlik və müasir hərb sənəti" mövzusunda keçirilən konfransda Milli Müdafiə Universiteti və tabeliyindəki təhsil müəssisələrinin zabit, professor-müəllim heyəti ilə bərabər, Müdafiə Nazirliyinin, AMEA İnformasiya Texnologiyaları İnstitutunun, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının, Elm və Təhsil Nazirliyinin Fizika İnstitutunun və Radiasiya Problemləri İnstitutunun, Azərbaycan Milli Aerokosmik Agentliyinin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Azərbaycan Tibb Universitetinin, Azərbaycan Texniki Universitetinin, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin, Bakı Ali Neft Məktəbinin, Fövqəladə Hallar Nazirliyinin Akademiyasının, Dövlət Sərhəd Xidməti Akademiyasının, Daxili Qoşunların Ali Hərbi Məktəbinin, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin və Şamaxı Astrofizika Rəsədxanasının nümayəndələri iştirak ediblər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan həmvətənlilərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransı Milli Müdafiə Universitetinin rektoru, professor, general-leytenant Heydər Piriyev açıq elan edərək Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi irsinin öyrənilməsinin aspektlərindən danışıb, 44 günlük Vətən müharibəsində qazanılan parlaq Zəfərdən söz açıb, həmçinin elmi-praktik konfransın işinə uğurlar arzulayıb.

İştirakçı və qonaqlara dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 100 illiyi və İkinci Qarabağ müharibəsində qazanılan Böyük Qələbənin üçüncü ildönümünə həsr olunan videomateriallar nümayiş olunub.

Konfransda çıxış edənlər Heydər Əliyev və ordu quruculuğu, Ulu Öndərin əsasını qoyduğu müasir Azərbaycanın inkişaf strategiyası, təhsil, elm, iqtisadi və hərb sahəsindəki inkişaf dinamikası barəsində fikirləri iştirakçıların diqqətinə çatdırıblar.

Plana uyğun olaraq konfransda İqtisadi elmlər doktoru, professor Rasim Həsənov və milli təhlükəsizlik və hərbi-nəzəri elmlər doktoru, professor, polkovnik Bəbir Quliyevin moderatorluğu ilə "Cənubi Qafqazda təhlükəsizlik arxitekturası" və "Müasir mərhələdə hərb sənətinin inkişaf xüsusiyyətləri" mövzularında panel müzakirələr aparılıb.

Qeyd olunub ki, konfransın əsas məqsədi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsası qoyulan Azərbaycan Respublikasının inkişaf strategiyasının müxtəlif istiqamətlərinin, inkişaf dinamikasının, o cümlədən, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tələblərə müvafiq olaraq ordu quruculuğunda yeni yanaşmaların və perspektivlərin elmi-nəzəri əsaslarının öyrənilməsindən ibarətdir.





Plenar iclasdan sonra respublika elmi-praktik konfransı dörd bölmə üzrə işini davam etdirib. İştirakçıların "geosiyasət və milli təhlükəsizlik", "hərbi idarəetmə və hərb sənəti", "hərbi texniki elmlər" və "hərbi humanitar elmlər" mövzularında maraqlı elmi məruzələri dinlənilib, müzakirələr aparılıb.

# Əlahiddə Ümumqoşun Orduda komanda-qərargah təlimi keçirilib



Əlahiddə Ümumqoşun Orduda (ƏÜO) qərargahların və şəxsi heyətin döyüş bacarığının təkmilləşdirilməsi məqsədilə komanda-qərargah təlimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlim ssenariyə uyğun olaraq birləşmə, hissə və bölmələrin müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilməsi məqsədilə döyüş təyinatlı rayonlara çıxarılması ilə başlanılıb.

Təlimin növbəti mərhələsi idarəetmə məntəqələrinin açılması, qərargahlar tərəfindən əməliyyatların planlaşdırılması, qərarların qəbul olunması üçün zəruri hesabatların aparılması, bölmələr arasında qarşılıqlı əlaqənin saxlanılması və hərtərəfli təminatın təşkili üzrə tədbirlərin yerinə yetirilməsi ilə davam etdirilib.

Praktiki fəaliyyətlərə cəlb olunan birləşmə, hissə və bölmələrin tapşırıqları dəqiqləşdirilib, döyüş fəaliyyətlərinin gedişində artilleriya və hava hücumundan müdafiə bölmələrinin ümumqoşun birləşmələri ilə qarşılıqlı fəaliyyəti ərazidə məşq etdirilib.

Taktiki fəaliyyətlərin praktiki icra mərhələsində artilleriya bölmələri düşmənin ön xətt və dərinlikdə yerləşən mövqelərinə atışlar icra ediblər.

Artilleriyanın döyüş atışlarından sonra xüsusi təyinatlı qruplara düşmənin müdafiəsinin ön xəttində yerləşən döyüş mövqelərinə və vacib obyektlərə basqın tapşırığı verilib. Xüsusi təyinatlılarımız pilotsuz uçuş aparatları ilə mövqelərə zərbələr endirdikdən sonra basqın fəaliyyətinə başlayıblar.

Mövqelərə hücum zamanı müdafiədə olan bölmələri gücləndirmək və irəliləyən bölmələrimizin hücumlarını dayandırmaq üçün hərəkətdə olan şərti düşmənin mexanikləşdirilmiş bölməsi xüsusi təyinatlı qruplar tərəfindən pusquya salınaraq məhv edilib.

Mürəkkəb və çətin dağlıq relyefdə yerləşən düşmən mövqelərinə hücum edən xüsusi təyinatlılar sızma və dağdan enmə fəaliyyətlərini icra edərək mövqeləri ələ keçirib və düşmənin canlı qüvvəsini məhv ediblər.

Komanda-qərargah təliminin sonuncu mərhələsində qəbul edilmiş qərarların və aparılmış hesabatların reallığı Simulyasiya Mərkəzində kompüterlər üzərində yoxlanılıb.

Təlimin sonunda icra edilmiş fəaliyyətlərin təhlili aparılıb. Yekunda bildirilib ki, "Əlahiddə Ümumqoşun Ordunun 2023-cü tədris ilinə hazırlıq planı"na əsasən, keçirilən komanda-qərargah təlimində qarşıya qoyulmuş tapşırıqlar tam həcmdə yerinə yetirilib, komandir və qərargahların döyüşü idarəetmə vərdişlərinin daha da təkmilləşdirilməsi istiqamətində böyük təcrübə qazanılıb.





# Rusiya yaxın vaxtlarda RF, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünü təşkil etməyə hazırdır

Rusiya yaxın vaxtlarda Moskvada RF, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin üçtərəfli görüşünü təşkil etməyə hazırdır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri brifinqdə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib.

O qeyd edib ki, Moskva Bakı ilə İrəvan arasında gərginliyin aradan qaldırılmasına kömək edəcək hər cür təması dəstəkləyir.

"Biz öz tərəfimizdən çıxış edərək bildiririk ki, ikitərəfli münasibətlərin normallaşdırılmasının yol xəritəsi 2020-2022-ci illər dövründə əldə olunan üçtərəfli razılaşmalar kompleksidir. Buraya iki ölkə arasında sülh sazişinin imzalanması, Cənubi Qafqazda iqtisadi, nəqliyyat əlaqələrinin açılması, sərhədlərin delimitasiyası, vətəndaş cəmiyyəti səviyyəsində dialoq və digər məsələlər daxildir", - deyə RF XİN-in rəsmi nümayəndəsi əlavə edib.

"Bu gün bir daha təsdiqləmək istərdim ki, biz yaxın vaxtlarda Moskvada Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin üçtərəfli görüşünü təşkil etməyə hazırıq", - deyə diplomat vurğulayıb.

# Azərbaycanın Milli Qəhrəmanı Koroğlu Rəhimovun anadan olmasının 70 illik yubileyinə həsr olunmuş tədbir keçirildi



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarımızı tanımaq və tanıtdırmaq məqsədilə "Şəhidlər ölməz, Vətən bölünməz" adlı tədbirlər silsiləsindən şəhidlik zirvəsinə ucalan Azərbaycanın Milli Qəhrəmanı şəhid Koroğlu Rəhimovun anadan olmasının 70 illik yubileyinə həsr olunmuş tədbir keçirildi.

Tədbirdə Müdafiə Nazirliyinin əməkdaşları, ictimaiyyət və media nümayəndələri, şəhidin ailə üzvləri, döyüş yoldaşları və dostları iştirak etdilər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Sonra qəhrəmanın 70 illik yubileyinə həsr edilən "Savaşın Koroğlusu" sənədli filmi iştirakçılara nümayiş etdirildi.

Anım mərasimində çıxış edən Azərbaycanın Milli Qəhrəmanı şəhid Koroğlu Rəhimovun oğlu Rəşad Rəhimov tədbirin təşkilatçılığına görə Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildirərək, gələn qonaqları salamladı. Sonra atası haqqında xoş xatirələrindən və şərəfli döyüş yolundan danışdı. Bildirdi ki, atası Xocalı faciəsindən sonra könüllü olaraq Azərbaycan Silahlı Qüvvələrinin sıralarına qatılıb. "Çünki atam Vətənimizin düşməndən qorunması uğrunda mübarizədə iştirak etməyi özünə borc bilib. Cəbhəyə yollanarkən biz balaca idik. Buna baxmayaraq, o Vətənimizi qorumaq üçün döyüşə atılıb. Torpaqlarımızın düşməndən azad edilməsi üçün qəhrəmanlıqla döyüşüb, göstərdiyi şücaəti onu qısa müddətdə əfsanələşdirib. "N" hərbi hissəsinin 2-ci motoatıcı bölüyünün komandiri təyin olunduqdan sonra 1992-ci ilin iyununda Goranboy rayonunun Buzluq, Çartaz, Erkəç, Mənəşli, Başkənd, Madagiz Suqovuşan və Gülüstan kəndləri uğrunda erməni işğalçılarına qarşı döyüşlərdə iştirak edib. 3 iyul 1992-ci ildə Ağdərə istiqamətində baş verən qanlı döyüşlərin birində atam şəhidlik zirvəsinə yüksəlib. Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Koroğlu İsmayıl oğlu Rəhimov ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb".

Azərbaycanın Milli Qəhrəmanı şəhid Koroğlu Rəhimovun əmisi Mail Rəhimov bildirdi ki, yetkinlik yaşından Koroğlu həmyaşıdlarından Vətəninə bağlılığı ilə seçilirdi. "Həmyerlilərimizin el-obalarından didərgin düşməsi, 20 Yanvar hadisələri, Xocalı soyqırımı qəhrəmanımızın düşməndən qisas almaq və torpaqlarımızı azad etmək arzusunu daha da alovlandırırdı. Nəticədə qəhrəmanımız könüllü olaraq cəbhəyə yollanaraq, torpaqlarımızı düşmənlərdən qoruyanların sıralarına daxil olmağı qərara aldı. Qərarını atasına bildirdiyi zaman atası onunla qürur duyduğunu bildirərək, xeyirdua verdi. Koroğlu könüllü olaraq yenicə yaranmaqda olan milli ordu sıralarına qatıldı. Öz arzusu ilə Qarabağın ən gərgin döyüş bölgəsinə getdi. Qısa müddət ərzində Koroğlunun qəhrəmanlığı dillər əzbəri oldu. Goranboy rayonunun Buzluq, Başkənd Suqovuşan, Gülüstan, Çartaz, Erkəc kəndlərinin azad olunmasında onun başçılıq etdiyi bölük əsl qəhrəmanlıq nümunəsi göstərdi. Ağır döyüşlərində birində şəhid oldu. Koroğlu kimi qəhrəman oğullarımızın döyüş yolu gənc nəslimizə örnəkdir. Onları tanıtdırmaq isə hər birimizin mənəvi və vətəndaşlıq borcudur".



Digər çıxış edənlər də Azərbaycanın Milli Qəhrəmanı şəhid Koroğlu Rəhimovun şərəfli həyat və döyüş yolundan, onun şücaət, qəhrəmanlıq və vətənpərvərliyindən söz açdılar.

Qeyd edək ki, Koroğlu Rəhimov 31 oktyabr 1953-cü ildə Oğuz rayonunun Xaçmaz kəndində müəllim ailəsində anadan olub. 1961-ci ildə ailəsi ilə birlikdə ata-baba yurdları olan Qərbi Azərbaycanın Zəngibasar mahalına, Sarıcalar kəndinə köçüb. 1969-cu ildə hərbi təhsilini müvəffəqiyyətlə başa vurduqdan sonra Bakıya gələrək, Azərbaycan Neft və Kimya İnstitutunun avtomexanika fakültəsinə daxil olub. Ordu sıralarına çağırıldığına görə təhsilini tamamlaya bilməyib. Almaniya Demokratik Respublikasında hərbi xidmətini başa vurduqdan sonra yarımçıq qalmış təhsilini tamamlayıb.

Mərasim Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin ifa etdiyi vətənpərvərlik mahnıları ilə başa çatdı.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# Hərb mədəniyyətimizin daşlaşmış səhifəsi



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində "Milli Dəyərlərimizin Qorunması" İctimai Birliyinin hazırladığı Bakı milyonçusu xeyriyyəçi Ağa Musa Nağıyevə həsr edilmiş "Ağa Musa Nağıyev: Tarix yazan binalar" sənədli filminin təqdimatı keçirildi.

Təqdimatda Müdafiə Nazirliyinin hərbi qulluqçuları, Azərbaycanın tanınmış elm, incəsənət, mədəniyyət və ictimaiyyət nümayəndələri, Bakı milyonçusu xeyriyyəçi Ağa Musa Nağıyevin nəsil şəcərəsinin nümayəndələri və başqa qonaqlar iştirak etdilər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Qısa təqdimatdan sonra sənədli film tədbir iştirakçılarına nümayiş olundu. Nümayişdən sonra iştirakçılara məlumat verildi ki, film Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə ərsəyə gətirilib. Film "Aktual Qrup" şirkətinin istehsalıdır. Layihə rəhbəri milyonçunun nəvəsi "Milli Dəyərlərimizin Qorunması" İctimai Birliyinin sədri Dilarə Nağıyeva, rejissoru Etibar Babayevdir.

Təqdimatda Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani, Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi istefada olan polkovnik Əzizağa Qənizadə, professorlar Elçin Əliyev, Asif Rüstəmli və başqaları çıxış etdilər. Onlar daha çox ötən əsrin əvvəllərində mədəniyyət tariximizin öyrənilməsində bu sənədli filmin böyük əhəmiyyətindən danışdılar. Dövrünün tanınmış milyonçusu xeyriyyəçi Ağa Musa Nağıyevin Bakı şəhərinin arxitekturasının zənginləşdirilməsindəki misilsiz xidmətlərindən geniş söhbət açdılar. Bakının klassik quruluşunu, Qərb və Şərq memarlıq koloritini özündə əks etdirən möhtəşəm binaların əskəriyyətinin Ağa Musa Nağıyev tərəfindən inşa etdirildiyini vurğuladılar. Qeyd edildi ki, milyonçunun maliyyə yatırımı ilə inşa edilən 98 binanın Azərbaycan mədəniyyəti tarixindəki yeri və rolu böyükdür. Bir əsrdən çox yaşı olan bu binalar xalqımızın milli sərvətidir.

Polkovnik Abdulla Qurbani çıxışında xüsusi olaraq vurğuladı ki, bu gün Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yerləşdiyi bina da Ağa Musa Nağıyevin inşa etdirdiyi tarixi binalar sırasındadır. "Xalq Cümhuriyyətinin süqutundan sonra - bir əsrdən çoxdur ki, bu bina Azərbaycan hərb tarixinin şanlı səhifələrini özündə ehtiva edib qoruyur. Azərbaycanın görkəmli, qəhrəman, general oğullarının xatirəsi, nəfəsi bu binada yaşayır. Maestro Niyazi, iki dəfə Sovet İttifaqı Qəhrəmanı tank qoşunları general-mayoru Həzi Aslanov, general-mayor Akim Abbasov, Sovet İttifaqı qəhrəmanları Ziya Bünyadov və Aslan Vəzirov kimi xalqımızın görkəmli oğulları hərbi məktəbdə təhsil alarkən, kursant yataqxanası kimi istifadə olunan bu binada yaşamışlar. Hərb mədəniyyətimizin ocağı sayılan bina tarixi ənənələrinə sadiq qalaraq, milliliyi özündə qoruyaraq Azərbaycan Ordusuna bu gün də xidmət edir".



Təqdimatda çıxış edənlər bildirdilər ki, filmin hazırlanmasında əsas məqsəd bu binaların şahidi olduğu tarixi prosesləri cəmiyyətə bir daha tanıtmaqla Azərbaycan tarixinin indiyədək oxunmayan, yazılmayan səhifələrini açıqlamaq, milli-mənəvi dəyərlərimizdən olan xeyriyyəçilik ənənələrini təbliğ etmək və yaşatmaqdır. Mədəniyyətimizin daşlaşmış səhifələrinin tarixini həm bugünkü, həm də gələcək nəsillərə çatdırmaqdır.

Tədbirdə filmin çəkilişində əməyi olan bir qrup elm, mədəniyyət və incəsənət nümayəndələrinə "Milli Dəyərlərimizin Qorunması" İctimai Birliyinin diplomları təqdim olundu.

Təqdimatda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri Azərbaycanı, vətənpərvərliyi tərənnüm edən, tariximizlə səsləşən mahnılar ifa etdilər.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Hərbi qulluqçumuz Çində keçirilən beynəlxalq tədbirdə mükafatlandırılıb






Çin Xalq Respublikasında keçirilən "Çinin modernləşdirilməsi üzrə Beynəlxalq Dialoq"da Azərbaycan Ordusunun hərbi qulluqçusu iştirak edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təhsil aldığı beynəlxalq tədris müəssisəsində sosial fəaliyyətlərdə fərqləndiyinə görə tədbirə dəvət edilən polkovnik-leytenant Elxan Fərzəliyev beynəlxalq dialoqda Azərbaycan-Çin münasibətləri və pilotsuz uçuş aparatlarına dair mövzular üzrə çıxış edib.

36 ölkədən 55 tələbənin iştirak etdiyi dialoqda çıxışı yüksək qiymətləndirilən hərbi qulluqçumuz fəxri fərmanla mükafatlandırılıb.

# "Fəxr edirəm ki, qalib Azərbaycan Ordusunun sıralarından başıuca qayıdıram"

"N" hərbi hissəsində Vətən qarşısında övladlıq borcunu layiqincə yerinə yetirib, tərxis olmağa hazırlaşan əsgərlərlə həmsöhbət olduq. Onlar ordu həyatı ilə bağlı fikirlərini bizimlə bölüşdülər. İlk həmsöhbətim əsgər Əli Məmmədov oldu. "Uşaq yaşlarımdan xalqımızın başına gətirilən müsibətləri, el-obalarını məcburiyyət qarşısında tərk etmələrini, torpaqlarımızın azadlığı uğrunda öz canını qurban verərək şəhidlik zirvəsinə yüksələn soydaşlarımızın qəhrəmanlıqlarını, düşmənin həmyerlilərimizə qarşı törətdiyi soyqırımı və faciələri öyrəndikcə ermənilərə qarşı olan nifrətim gündən-günə daha da artır və onlardan qisasımızı alacaq günü səbirsizliklə gözləyirdim. Məhz bu səbəbdən də hər zaman arzulamışam ki, torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edərək düşməndən xalqımızın qisasını alanlardan olum. Əfsuslar olsun ki, Vətən müharibəsi başladığı zaman Azərbaycan Dillər Universitetində təhsil alırdım. Buna görə də haqq savaşımıza da qatıla bilmədim. Təhsilimi başa vurduqdan sonra isə Ana Vətənimə olan övladlıq borcumu ödəmək üçün hərbi xidmətə yollandım. Xidmətimin ilk günündən etibarən intizamlı olmağa, hərbin sirlərinə dərindən yiyələnməyə və verilən bütün əmr və tapşırıqların öhdəsindən layiqincə gəlməyə çalışmışam. İnanıram ki, bunlara nail ola bilmişəm. İkinci Qarabağ müharibəsinə qatıla bilməsəm də, üçtərəfli Bəyanatın müddəalarının təmin olunması məqsədilə Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında başlayan əməliyyat tədbirlərinə qatıldım. Ordumuz qısa müddət ərzində düşmənə göz açmağa imkan vermədi. Mətin addımlarla irəliləyən qəhrəmanlarımızın ayaq səslərindən qorxan düşmən ağ bayraq qaldırmaqdan başqa çıxış yolu tapa bilmədi. Bununla da rəşadətli Azərbaycan Ordusu bir daha bütün dünyaya güc və qüvvətini nümayiş etdirdi", - deyə əsgər bildirdi.

Əsgər İsrafil İbrahimov hərbi xidmətə Qazax rayonundan çağırılıb. Məktəbi bitirdikdən sonra təhsilini davam etdirmək istəyən İsrafil, Azərbaycan Dövlət Aqrar Universitetinə qəbul olub. Bakalavr təhsilinin ardınca isə magistr təhsili alıb. Xidməti vaxt çatdıqda isə bir an belə düşünmədən rəşadətli Azərbaycan Ordusunun sıralarına qatılıb. Xidmətinin ilk günündən etibarən hərbi intizamı ilə komandirlərinin və silahdaşlarının hörmət və rəğbətini qazanıb. Verilən bütün tapşırıqları vaxtlı-vaxtında və nöqsansız yerinə yetirən İsrafil hərbin bütün incəliklərinə sahib olub.



- Əsgəri xidmət bizləri peşəkar döyüşçü kimi formalaşmağımızla yanaşı, cəmiyyətə yararlı vətəndaş kimi də yetişdirib. Komandirlərimiz tərəfindən keçirilən dərs və məşğələlərin sayəsində döyüş, fiziki və mənəvi-psixoloji hazırlıqlarımızı yüksəltmişik. Məhz peşəkar komandirlərimizin sayəsində verilən istənilən tapşırıqları yerinə yetirməyə qadirik. Sentyabrın 19-da başlanan əməliyyat tədbirləri isə dediklərimin əyani sübutudur. Bu döyüşlərlə rəşadətli ordumuz öz gücünü bir daha bütün dünyaya göstərdi. Mətin addımlarla irəliləyən və qarşısına çıxan istənilən maneələri dəf edən ordumuz düşməni məhv etdi. Döyüşçülərimizin şücaəti və qorxmazlığı sayəsində döyüşlər cəmi bir gün davam etdi. Ordumuzun qarşısında tab gətirə bilməyəcəyini anlayan düşmən isə təslim olmaqdan başqa çıxış yolu tapmadı. Döyüşlər zamanı isə şəhid olan silahdaşlarımıza Allahdan rəhmət, yaralılarımıza isə şəfa diləyirəm. Çünki onlar öz canlarını Vətənimizə qurban verdi, qələbəni bizlərə bəxş etdilər.

Ucar rayonundan xidmətə çağırılan əsgər Arzu Məmmədov xidməti dövründə qazandığı dostlarından danışdı: "Asudə vaxtlarımızda stolüstü şahmat, dama kimi oyunlar oynayır, mülki həyatda keçirdiyimiz vaxtlardan, tərxis olduqdan sonra dostluğumuzu davam etdirməkdən uzun-uzadı söhbətlər edirik. Inanırıq ki, bizim dostluğumuz ailə dostluğuna çevriləcək. Çünki illərin və ən əsası döyüşlər sınağından keçən dostluq əbədi olacaqdır. Burada olduğu kimi, mülki həyatda da mehriban, səmimi, qayğıkeş və bir-birimizə arxa-dayaq olacağıq. Fəxr edirəm ki, regionun ən güclüsü olan rəşadətli və qalib Azərbaycan Ordusunun sıralarından tərxis olur, ailəmin yanına başıuca qayıdıram. Gənc əsgərlərə demək istəyirəm ki, xidmətlərini düzgün təşkil etsinlər, dərs və məşğələlərdə fəal iştirak edib, hərbin sirlərinə dərindən yiyələnsinlər. Ən önəmlisi isə Vətən torpaqlarını göz-bəbəyi kimi qorusunlar".

Əsgər Fərid İmambaxışov dedi ki, xidmətimi alnıaçıq başa vurub ailəmin yanına başıuca qayıdacağım üçün sevinirəm. "Çünki komandirlərimizin bizlərə olan inamını və etimadını doğrulda bildik. Vətən qarşısında içdiyimiz Hərbi Anda sadiq qalaraq, sentyabrın 19-da keçirilən əməliyyat tədbirləri zamanı dövlətimizin ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruduq. Torpaqlarımızda qanunsuz fəaliyyət göstərən erməni silahlı birləşmələrini və separatçıları məğlub etdik. Digər tərəfdən isə xidmətimin başa çatmasına sayılası günlərin qaldığı üçün heyfsilənirəm. Çünki hərbi hissəmiz üçün çox darıxacam. Buranın demək olar ki, hər bir yerində özünəməxsus bir xatirəmiz var. Həmçinin bütün qayğı və problemlərimizlə yaxından maraqlanan peşəkar komandirlərimizdən ayrılıram. Onların bizim peşəkar döyüşçü kimi formalaşmağımızda əziyyəti çox böyükdür". Daha sonra isə Fərid dedi ki, əsgərlik hər birimizi mərd, qorxmaz və vətənpərvər formalaşdırdı. "Dostluğa sadiq qalmaq, ən çətin anda belə dostunun yanında olmaq, verilən tapşırıqları tam məsuliyyətlə yerinə yetirmək kimi müsbət xüsusiyyətlər əldə etdik. Çətinliyə dözməyi, müxtəlif şəraitlərə uyğunlaşmağı bacardıq".

Qəbələ rayonundan olan Səbuhi Qaragözov dedi ki, əsgərlik həyatını danışmaqla bitməz. "Burada hər bir anın öz xatirəsi vardır. O xatirələr ki, ömürlük olaraq yaddaşımıza həkk olunub. Hərbi xidmət hər bir insanı tamamilə dəyişir. Burada böyüyür, dünyagörüşün artır və daha təcrübəli olursan. Həmçinin cəmiyyətə yararlı vətəndaş kimi də formalaşırsan. Əlbəttə, bütün bu xüsusiyyətlərin formalaşmasında qayğıkeş komandirlərimizin rolu danılmazdır. Onların keçdiyi məşğələlərin sayəsində Vətənimizin keçmişini dərindən öyrənib, döyüş, atış, fiziki və mənəvi-psixoloji hazırlığımızı yüksəltmişik".

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Polşa ordusu AW-149 helikopterlərinin ilk partiyasını alıb



Polşa ordusuna "PZL widnik" konsernində istehsal olunan AW-149 hərbi-nəqliyyat helikopterlərinin ilk partiyası tədarük edilib.

İtaliyada istehsal olunan 8,5 tonluq helikopter saatda 278 kilometr sürətlə uça və 18 nəfəri daşıya bilir. O, həmçinin pulemyotlarla və tank əleyhinə raketlərlə silahlanıb.

Polşa ordusu 32 ədəd AW-149 helikopterinin alınması üçün "PZL widnik" konserni ilə müqavilə imzalayıb. Sövdələşmənin dəyəri 2 milyard dollara yaxındır. Orduya tədarük olunan ilk partiyada neçə helikopterin olduğu barədə məlumat verilmir.

## ABŞ-ın İraqdakı hərbi bazası yenidən PUA hücumuna məruz qalıb



ABŞ-ın İraqın qərbindəki Ənbər əyalətində yerləşən Ayn-əl-Əsəd hərbi bazası yenidən PUA hücumuna məruz qalıb.

Reuters agentliyi bu barədə İraq hökumətində və güc strukturlarında olan mənbələrinə istinadla məlumat yayıb. Məlumata görə, hücum nəticəsində insan tələfatı və maddi itki qeydə alınmayıb.

Pentaqonun yüksək vəzifəli nümayəndəsi oktyabrın 17-dən 30-dək PUA və raketlərdən istifadə olunmaqla ABŞ və beynəlxalq koalisiyanın İraqdakı bazalarının 14 dəfə, Suriyadakı bazalarının isə 9 dəfə hücuma məruz qaldığını bildirib.

## Nigeriyada silahlılar 17 nəfəri qətlə yetirib



Nigeriyanın şimal-şərqində "Qərbi Afrika İŞİD" qruplaşmasının Kayaya kəndinə hücumu nəticəsində 17 nəfər öldürülüb.

Yerli müdafiə qüvvələrinin nümayəndəsi Qrema Bukar hadisə nəticəsində daha beş nəfərin yaralandığını bildirib. Onun sözlərinə görə, hücuma kənd sakinlərinin qruplaşmaya xərac verməkdən imtina etməsi səbəb olub.

Qeyd edək ki, 2015-ci ildə "Boko haram" təşkilatından ayrılan "Qərbi Afrika İŞİD" qruplaşmasının əsas bazaları Nigeriyanın şimal-şərqində, həmçinin Çad, Kamerun və Nigerin Çad gölü sahillərində yerləşir.

## BMT sülhməramlıları Malinin Kidal şəhərindəki bazanı tərk ediblər




BMT sülhməramlıları Malinin şimal-şərqindəki Kidal şəhərindəki bazanı tərk ediblər.

Bu barədə BMT-nin Malidə kompleks missiyasının (MİNUSMA) nümayəndəsi bildirib.

Malinin "Abamako" xəbər portalının verdiyi məlumata görə, ölkənin Hərbi Hava Qüvvələri gün ərzində Kidaldan 35 kilometr məsafədə yerləşən üsyançıların mövqelərinə zərbələr endirib. Üsyançıların Kidaldakı bazaya daxil olduqları bildirilir. Müstəqil mənbələr isə bu məlumatı təsdiqləmir.

Bundan əvvəl, Mali hakimiyyəti MİNUSMA kontingentlərinin ölkənin şimal və şərqindəki bazalardan çıxarılmasının "müəyyən bir tələsik şəraitdə" baş verdiyini bildirib. Razılaşmaya görə, Malidəki bütün MİNUSMA bazaları Afrika ölkəsinin silahlı qüvvələrinin nəzarətinə verilməlidir.

BMT sülhməramlıları daha əvvəl Malinin şimal-şərqindəki Tesalit və Agelok şəhərlərindəki bazaları tərk ediblər.

BMT Təhlükəsizlik Şurası iyunun 30-da Mali hökumətinin tələbi ilə bu Afrika ölkəsində sülhməramlı missiyanın başa çatması ilə bağlı qətnaməni yekdilliklə qəbul edib. Bölmələrin çıxarılması bu il dekabrın 31-dək başa çatmalıdır.

**AZƏRTAC-ın materialları əsasında**

# Kursantlar Azərbaycan İstiqlal Muzeyində

*Bu günlərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantları Azərbaycan İstiqlal Muzeyində oldular. Zabit Orxan Ağasoy bildirdi ki, müntəzəm olaraq kursantlar üçün ekskursiyalar təşkil olunur. Gələcəyin zabitləri olacaq kursantların tarixi yerlərə və muzeylərə gəzintilərinin təşkili olduqca əhəmiyyətli xarakter daşıyır. Onlar Vətənimizin tarixi ilə yaxından tanış olurlar. Bu cür gəzintilər kursantların təlim və tərbiyəsinə mühüm təsir edir.*



Azərbaycan İstiqlal Muzeyi 1991-ci il yanvarın 9-da yaradılıb. Muzey 6 ekspozisiya zalından ibarətdir. Muzey rəsm və heykəltəraşlıq əsərləri, xəritələr, şəkillər, kitablar və başqa eksponatlarla zəngindir.

Kursantlar əvvəlcə Azərbaycan Dövlət Rəmzləri olan 1-ci zala gəldilər. Onlar burada Bayraq, Gerb və Himnimizlə yanaşı, "Gülüstan" və "Türkmənçay" müqavilələrinə dair materiallarla da yaxından tanış oldular.

Kursant İbrahim Əliyev dedi ki, Azərbaycan İstiqlal Muzeyinə ilk gəlişidir. "Ölkəmizin zəngin tarixi ilə bağlı dolğun məlumatları əldə etdim. XIX əsrin ikinci yarısı XX əsrin əvvəllərindəki dövrü əhatə edən mədəniyyət, elm, neft sənayesinin inkişafı Bakı milyonçuları H.Z.Tağıyev, M.Nağıyev, M.Muxtarov və başqa tarixi şəxsiyyətlərə məxsus əşyaların burada yer alması marağımıza səbəb oldu".

1905-1911-ci illərdə Cənubi Azərbaycanda baş vermiş Milli Azadlıq hərəkatı və bu hərəkata rəhbərlik etmiş tarixi şəxsiyyətlərin mübarizələrlə zəngin həyat hekayələrini ekspozisiya zalının bələdçisinin dilindən öyrənən kursantlar daha dolğun məlumat almaq üçün ona əlavə suallar da verirdilər. Kursant Elxan Heydərovun da muzeyə ilk gəlişidir. 1988-ci ildə ermənilərin terror və separatçılıq əməlləri nəticəsində başlayan Qarabağ hadisələri ilə bağlı yaradılmış ekspozisiya zalında toplanmış eksponatlar onun daha çox diqqətini cəlb etdiyini bildirdi. "Burada yaxın tariximizlə bağlı zəngin materiallar, həmçinin ermənilərin Azərbaycanın tarixi ərazilərinin iyirmi faizinin işğalı, bir milyondan artıq soydaşımızın doğma ev-eşiyindən didərgin düşməsi, qarşılaşdıqları faciələr də geniş yer alıb. Muzeydə öyrəndiyimiz və dəqiqləşdirdiyimiz əsas o oldu ki, ölkəmizi yaşatmaq üçün xalqımız düşmənlərə qarşı nə cür mübarizələrdən keçib".





Kursantlar Mirsalam Ağayev, Nahid Süleymanov, Ülvi Səyidov və başqaları ekskursiyadan məmnun qaldıqlarını bildirdilər. Onlar 1993-cü il iyunun 15-də Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışını əks etdirən şəkillərlə tanış oldular. Burada Ulu Öndər Heydər Əliyevin prezidentliyi dövründə ordu quruculuğunda görülən işlərlə bağlı materiallar toplanıb. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin fəaliyyəti ilə, həmçinin İkinci Qarabağ müharibəsində 44 gün ərzində əldə etdiyi tarixi Zəfərlə bağlı dolğun məlumatlar da kursantların marağına səbəb oldu.

Kursantların asudə vaxtında Azərbaycan İstiqlal Muzeyinə gəzintisi onların xatirəsində yadda qalan bir gün oldu.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Tarixi Zəfərin qüruru həmişə yaşanılacaq



Vətən müharibəsi başlayanda 4-cü sinifdə oxuyurdum. Mən əksər yoldaşlarımdan daha çox həyəcan keçirirdim. Ordumuzun qələbələrini mən də gözləyirdim, işğalın başa çatmasını mən də arzulayırdım. Həm azərbaycanlı kimi, həm də hərbçi ailəsi olduğuma görə. Atam da döyüşlərdəydi. İmkan tapanda zəng edirdi, əminliklə deyirdi ki, ordumuz mütləq qələbə qazanacaq.

Noyabrın 8-də də zəng etmişdi. Bu zəng əvvəlkilərdən fərqlənirdi. Elə sevinirdi ki, Şuşa işğaldan azad edilib! Bu sevinci evdə hamımız yaşadıq, bu sevinc qəlbimizə də, evimizə də sığmadı!

Ordumuz qalib gəldi, tarixi Zəfər qazandıq, torpaqlarımız işğaldan azad edildi. Zəfərdən sonra atamla görüşəndə yaşadığım qüruru heç zaman unutmaram - mən qalib zabit oğluyam! Atam "Azərbaycan bayrağı" ordeni ilə təltif edildi.

Müəllimimizin bir tövsiyəsini heç zaman unutmayacağıq - hansı peşəni seçirsiniz seçin, kamil mütəxəssis olun, kamil mütəxəssis kimi vəzifə borclarınızı əsl vətəndaş kimi, əsgəri məsuliyyətlə yerinə yetirin.

Biz bu tövsiyəni həyat yolumuzun başlanğıcında ağsaqqal nəsihəti bilirik.

Ordumuzun qazandığı tarixi zəfərin üç illiyidi. Biz də bu tarixi günü qürurla qeyd edirik. Bu Zəfər tariximizdə böyük hadisə oldu. Hər bir vətəndaş belə hadisələri qürurla yaşatmalıdır. Bu gün məktəbliyik - yaşadırıq, sabah əsgər olacağıq - yaşadacağıq...

Atamın xidmət yoldaşlarını, ordumuzun bütün hərbi qulluqçularını tarixi Zəfərin üç illiyi münasibətilə təbrik edirəm.

**Emil HƏSƏNOV**
**Ağstafa şəhəri,**
**7-ci sinif şagirdi**



Atam hərbi qulluqçudur, mayordur. Uşaqlığımız onun söhbətləri ilə keçib. Onun dediklərini aşağı siniflərdə oxuyanda da maraqla dinləyirdik, indi də maraqla dinləyirik. Xatırlayıram ki, atam Vətən müharibəsinə kimi torpaqlarımızın işğal olunmasından, ermənilərin törətdiyi vəhşiliklərdən danışırdı. Sonralar Vətən müharibəsindən, müharibənin döyüşlərindən, qəhrəmanlıqlardan danışırdı. Atam deyir ki, bu müharibə ədalətli müharibə idi, biz torpaqlarımızı işğaldan azad etmək üçün döyüşürdük, döyüşdük, qələbə qazandıq.

Tarixi Zəfəri hamı qürurla yaşadı. 5-ci sinifdə oxuyurdum, ancaq həmin günü yaxşı xatırlayıram. Onda xalqımızın sevincinə mən də qarışmışdım. Atası döyüşdən qayıdanların hamısı kimi, mən də kövrəkliklə onun ağuşuna atılmışdım. Müəllimimiz deyirdi ki, ata-ana ağuşu Vətəndi. Atamın ağuşuna atılanda elə bildim Vətənin ağuşundayam. Bu gözəl duyğuları mənə ordumuzun qazandığı tarixi Zəfər yaşatmışdı, bu sevinc Zəfərin sevincidi...

Zəfərin üç illiyi münasibətilə bütün hərbçiləri, Azərbaycanı, azərbaycanlıları təbrik edirəm. Mən də qalib Azərbaycan Ordusunun əsgəri olacağam!

**Natiq MEHDİYEV**
**Beyləqan rayonu,**
**8-ci sinif şagirdi**

# İdman

## Azərbaycan şahmatçıları FIDE reytinqində irəliləyiblər



Beynəlxalq Şahmat Federasiyası (FIDE) noyabr ayı üçün reytinq cədvəli açıqlayıb.

Azərbaycan şahmatçısı Teymur Rəcəbovun mövqeyi dəyişməyib. 36 yaşlı qrosmeyster 2745 xalla 14-cü pillədə qərarlaşıb.

Şəhriyar Məmmədyarov (2734) 1 pillə irəliləyərək, 16-cı sıraya yüksəlib. Bakıdakı Dünya Kubokunda 4-cü yeri tutan Nicat Abasov (2679) isə 5 pillələk sıçrayışla 53-cü yerə qalxıb. 2644 xalı olan Rauf Hüseynov 99-cu pillədə qərarlaşıb.

Siyahıya norveçli Maqnus Karlsen (2829) başçılıq edir. İkinci pillədə ABŞ təmsilçi Fabiano Karuana (2795), üçüncü sırada isə çinli Din Liren (2780) yer alıb.

Qadın şahmatçılardan Günay Məmmədzadə (2441) 29-cu pilləyə yüksəlib. Ülviyyə Fətəliyeva (2395) 57-ci, Gövhər Beydullayeva (2383) 68-ci, Gülnar Məmmədova (2350) isə 94-cüdür.

## Azərbaycan güləşçiləri beynəlxalq yarışlarda üç bürünc medal qazanıblar



Rusiyanın Nefteyuqansk şəhərində keçirilən sərbəst güləş üzrə beynəlxalq turnirdə Azərbaycanın iki idmançısı fəxri kürsüyə qalxıb.

Rəşid Babazadə (65 kiloqram) və Şamil Zubairov (97 kiloqram) üçüncü yeri tutub.

Qazaxıstanın Çimkənd şəhərində isə yunan-Roma güləşi üzrə beynəlxalq yarış təşkil edilib. Məhəmməd Şükürzadə (60 kiloqram) vətənə bürünc medalla qayıdıb.

## "Qızıl top" mükafatının qalibi Lionel Messi olub



"France Football" nəşrinin təsis etdiyi "Qızıl top" mükafatının qalibi bəlli olub.

ABŞ-ın "İnter Mayami" klubunun hücumçusu Lionel Messi ilin ən yaxşı futbolçusu adına layiq görülüb.

36 yaşlı forvarda mükafatı onun çıxış etdiyi klubun sahibi olan britaniyalı əfsanəvi futbolçu Devid Bekhem təqdim edib.

Erlinq Haaland "Qızıl top"un səsverməsində ikinci, Kilian Mbappe isə üçüncü yeri tutub.

Qeyd edək ki, Lionel Messi karyerası ərzində 2009, 2010, 2011, 2012, 2015, 2019 və 2021-ci illərdə "Qızıl top"un sahibi olub.

## Avstraliya dünya çempionatına mümkün ev sahibliyindən imtina edib




Avstraliya 2034-cü ildə keçiriləcək futbol üzrə dünya çempionatına ev sahibliyi etmək istəmir.

Qurum sözügedən mundial üçün namizədliyini irəli sürməyəcək.

Bildirilib ki, FFA bütün amilləri nəzərə alaraq bu qərarı qəbul edib.

Daha əvvəl FIFA Asiya Futbol Konfederasiyası (AFC) və Okeaniya Futbol Konfederasiyasını (OFC) DÇ-2034-ə ev sahibliyi etmək hüququ uğrunda mübarizəyə dəvət edib. Ardınca isə Səudiyyə Ərəbistanı bu mübarizəyə qoşulmaq üçün ali futbol qurumuna müraciət ünvanlayıb.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Məmmədov Novruz Eldəniz oğluna məxsus AD № 0056743 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.


| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| mayor Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | baş leytenant İbrahim MƏMMƏDBƏYOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 637 Nüsxə 4752 |